# GÖZLƏYİRƏM

Evdəyəm, yalnızam, gözləyirəm... Kimi, nəyi gözləyirəm? Heç özüm də bilmirəm bunu.

Bayaq Çaykovskinin violen konsertini dinləyirdim, indi də Şəmsi İmanovun klarnetini dinləyirəm. Yalnızam; yalnızlıq yayda qarı əriməyən, ayaq səsinə həsrət qalan bir yol kimi ürəyimin başından gəlib keçir.
Muzik sona çatır. Bəlkə yarıya qədər oxuduğum romandan bir neçə səhifə oxuyum deyə romanı əlimə alıram, ancaq həvəsim çatmır oxumağa. Bəlkə bir neçə şer oxuya bildim. Bu həvəs də hələ parlamamış sönüb gedir.
Bəs nə eləyim görəsən? Gözləmək fikri bütün ruhumu çulğalamışdır. Gözüm yolda, qulağım səsdə...
Pəncərə şişəsi xəfifcə səslənir. Bəlkə bir gələn var deyə ayağa qalxıb pəncərəni açıram. Eşikdə uğuldayan qış küləyi otağa dolub pərdəni tərpədir. "Axı pəncərədən də qonaqmı gələr?" Öz-özümə pıçıldayıb acı-acı gülümsünürəm.

Yalnızam, gözləyirəm... Kimi, nəyi gözləyirəm? Heç özüm də bilmirəm bunu.

Uzun illər boyu görmədiyim dostlarımı yadıma salıram. Onlardan hansını gözləyirəm? Bilmirəm. Mənim gözlədiyim kimdir, nədir axı? Düşünürəm və bəlli bir şeyi xəyalımda canlandıra bilmirəm. Mənim gözlədiyim doğma bir insan, doğma bir dağ, doğma bir çay, bir yol və bir ağac deyil; mən bunların hamısını birlikdə gözləyirəm.
Qapı döyülür, durub qapını açıram. Qapının ardında lal dayanan Boşluq, soyuq baxışı ilə deyir: "Kimi, nəyi gözləyirsən axı?"

Qapını bağlayıb evə keçirəm. Saat kəskin baxışı ilə iş vaxtının çatmasını bildirir.
Paltarımı geyinib papağımı başıma qoyuram və düşünürəm: “Keşkə gözləməyi də bu papaq kimi asılqandan asıb və onsuz evdən çıxıb gedə biləydim!”
Amma bu mümkün deyil. Bilirəm ki, hara getsəm o da mənimlə gələcəkdir.
İşə yollanıram. Arxamda, önümdə, içimdə o da mənimlə gəlir.

1991. Bonn